# Ulu öndərin Milli Kitabxanaya hədiyyə etdiyi şəxsi kitabları

**Tərtərdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları" mövzusunda sərgi-konfrans keçirilib.**



Mədəniyyət və Turizm Nazirliyi, Tərtər Rayon İcra Hakimiyyəti və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzi meydandakı abidəsi önünə tər çiçək dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

Tərtər Gənclər Mərkəzinin foyesində ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitablardan ibarət sərgi, ölməz şəxsiyyətin 1995-ci il iyunun 3-də Milli Kitabxanada çıxışına dair videomaterial nümayiş etdirilmişdir. Sonra rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafındakı misilsiz xidmətlərindən, ölkəmizdə kitabxana sahəsinin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb. Natiq qeyd edib ki, 1996-cı ildə "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında", 1998-ci ildə isə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bütün bunlar ölkəmizdə kitabxana işinin təkmilləşdirilməsinə, kitab nəşrinin və kitabxanaların inkişafına ciddi təkan verib.

Ulu öndərin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyət, bilik və zəka mənbəyidir" sözlərini xatırladan rayon rəhbəri qeyd etmişdir ki, bu gün Heydər Əliyev siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

K.Tahirov ulu öndərin Milli Kitabxanada 4 dəfə olduğunu, 1995-ci ildə kitabxanadakı çıxışını xatırladaraq, - "Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Zənnimcə, gələcəkdə bu təşəbbüs davam edə bilər", - deyən ümummilli liderin nəcib və xeyirxah addımlarından sonra yüzlərlə görkəmli alim və ziyalılarımızın Milli Kitabxana fonduna öz şəxsi kitablarını bağışladıqlarını dilə gətirdi.

Konfransda Bakı Dövlət Universitetinin kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, fəlsəfə doktoru Rasim Süleymanovun "Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" mövzusunda məruzəsi dinlənildi.

Tərtər rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru İlduzə Qurbanova, Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusifova, Umudlu kənd tam orta məktəbin direktoru Zabil Zeynalov və başqaları çıxış edərək, ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafında, müstəqilliyimizin möhkəmləndirilməsində əvəzsiz xidmətlərindən, ölkəmizdə kitabxana sahəsinin inkişafına göstərilən dövlət qayğısından bəhs etdilər.

Yekunda Milli Kitabxananın direktoru Kərim Tahirov Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova "Azərbaycan xalçaları İrəvan qrupu" kitabını hədiyyə etdi.

**Maarif RZAYEV,**
**"Respublika".**